Ədəbiyyat QƏZETİ 17 yanvar 2025-ci il 31 №2

# Zirəddin QAFARLI-70



Hörmətli Zirəddin müəllim!

Sizi - istedadlı şair, tərcüməçini 70 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz 1955-ci ildə Tovuz rayonunun Azaflı kəndində anadan olmusunuz. 1972-ci ildə Azaflı kənd orta məktəbini bitirib, Sumqayıt şəhərində məskunlaşmısınız. Azərbaycan Yazıçılar Birliyinin xətti ilə 1990-cı ildə M.Qorki adına Moskva Ədəbiyyat İnstitutunu bitirmisiniz. Azərbaycan Yazıçılar Birliyində Bədii Ədəbiyyatı Təbliğ Bürosunun Sumqayıt şəhəri üzrə təmsilçisi olmusunuz. "Yazıçı" nəşriyyatında, Azərbaycan televiziyasında, İctimai televiziyada müxtəlif vəzifələrdə çalışmış, Aşıqlar Birliyinin təsis etdiyi "Ozan" qəzetinin redaktoru olmuş, Sumqayıt şəhərində "Cırtdan" uşaq kinoteatrının müdiri işləmisiniz.

Siz bədii yaradıcılığa ötən əsrin 60-cı illərindən başlamısınız. Sonralar respublikada, eləcə də respublikadan kənarda çıxan jurnal və qəzetlərdə çap olunmuş şeirləriniz, publisistik yazılarınızla oxucuların diqqətini cəlb etmisiniz. Respublika mətbuatı ilə yanaşı, Rusiya, Türkiyə və digər ölkə mətbuatında da yaradıcılığınıza geniş yer verilmişdir. 1995-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz. Dünya ədəbiyyatından etdiyiniz tərcümələr də daim diqqət çəkmişdir.

Siz "Dünya ilə üz-üzə", "Haqdan gələn ağrılar", "Səni gözləyirəm", "Altımışa çatmış ömür", "Bu yoldan keçən atlı", "Hardasan, ömrüm-günüm?", "Yaşamağa gəlmişdim", "Yağışlı gecələrdə", "Üzümə dayanan ürəyim" adlı şeir kitablarının müəllifisiniz.

Siz, AYB tərəfindən Azərbaycan Respublikası Prezidentinin yazıçı və şairlər üçün ayırdığı birillik təqaüdə layiq görülmüsünüz.

Hörmətli Zirəddin müəllim, 70 illik yubileyiniz münasibətilə sizi bir daha təbrik edir, cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**